**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NAZİM SƏYYADXAN OĞLU ŞÜKÜROV**

# İNVESTİSİYALARIN İNNOVASİYA YÖNÜMÜNÜN TƏMİN OLUNMASININ MAKROİQTİSADİ PROBLEMLƏRİ

İxtisas: 5308.01 - «Ümumi iqtisadiyyat»

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI – 2015**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadiyyatın tənzimlənməsi» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** - iqtisad elmləri doktoru, professor
**Əhmədov Məhiş Alış oğlu**

**Rəsmi opponentlər:** - iqtisad elmləri doktoru, professor, əməkdar elm xadimi
**Əli Qəmbərəli oğlu Əlirzayev**

- i.ü.f.d., böyük elmi işçi,
**Ramil Məmmədəli oğlu Əliyev**

**Aparıcı təşkilat:** İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

Müdafiə 15 aprel 2015-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün D02.051 dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «14» mart 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi,**
**iqtisad elmləri namizədi, dosent M.M.Sadıqov**

## İŞİN ÜMUMİ XARAK TERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Qloballaşma şəraitində ölkəmiz iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun dinamik, davamlı inkişafı, beynəlxalq miqyasda rəqabət qabiliyyətliliyinin və təhlükəsizliyinin təmin edilməsi həlledici dərəcədə milli iqtisadiyyata yönəldilən investisiyaların innovasiya xarakterinin təmin edilməsindən, bütünlükdə bu prosesin səmərəli reallaşmasından asılı olacaqdır. Çünki, müasir dövrdə iqtisadi inkişafı təmin edən amillərin strukturunda və mənbələrində əsaslı keyfiyyət dəyişiklikləri baş verir. Bu hər şeydən əvvəl onunla izah olunur ki, son illərdə dünyada resurslara olan tələbatın kəskin artdığı şəraitdə onların məhdudluğu, eyni zamanda istehsallarının getdikcə daha başa gəlməsi iqtisadi inkişafın ənənəvi resurs amilləri hesabına artımı imkanlarını kəskin məhdudlaşdırmışdır.

Bu baxımdan yaxın perspektivdə investisiyaların innovasiya xarakterini gücləndirməklə innovativ inkişaf modelinə keçidin təmin olunması milli iqtisadiyyatın bütün sahə və sferalarında həlledici istiqamət olacaqdır. Bütün bunlar öz növbəsində mövcud reallıqlara, imkanlara əsaslanaraq makro innovasiya-investisiya siyasətinin konseptual əsaslarının, prioritetlərinin əməli cəhətdən reallaşdırılmasının vasitə və mexanizmlərini müəyyənləşdirməklə yaxın gələcək üçün innovativ inkişafın strategiyasının işlənib hazırlanmasını tələb edir.

Bununla bağlı "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında innovativ inkişaf ölkə qarşısında qoyulan məqsədə çatmağın ən prioritet istiqaməti kimi göstərilərək qeyd edilmişdir: «…ölkə iqtisadiyyatının səmərəliliyə əsaslanan iqtisadiyyata çevrilməsi, innovasiyaların üstünlüyü ilə səciyyələndirilən mərhələyə keçidi, uzun müddətli davamlı iqtisadi inkişafı təmin etmək üçün innovasiya fəaliyyətinin genişləndirilməsi, milli iqtisadiyyatın inkişafının əsas istiqamətlərdən birini təşkil edəcəkdir.» Belə bir şəraitdə davamlı inkişaf konsepsiyası

çərçivəsində investisiyaların innovasiya xarakterinin təmin edilməsində əsas məqsəd perspektiv dövrə tətbiqin cəmiyyətin tələbatlarının ödənilməsi ilə ölkənin malik olduğu resurslar balansı nəzərə alınaraq onlardan effektiv istifadəni optimallaşdırmaqdan ibarətdir.

Müasir dövrdə iqtisadi fəaliyyətdə yeni texnologiyaların və sürətlə dəyişən tələbin ödənilməsinə cavab verəcək dünya standartlarına uyğun keyfiyyətcə yeni məhsulların yaradılmasının zəruriliyi, innovasiyalı inkişafın rolunu daha da artırır.

Məlumdur ki, son illərdə ölkəmizdə kifayət qədər güclü iqtisadi, elmi-texniki, texnoloji, kadr, intellektual potensialı yaradılmışdır ki, bu da investisiyaların innovasiya xarakterini kəskin artırmağa imkan verir. Bu prosesin əməli cəhətdən səmərəli reallaşdırılması innovativ sahibkarlığın stimullaşdırılmasının dövlət və bazar mexanizminin, normativ-hüquqi bazasının, bütünlükdə tənzimlənməsi sisteminin təkmilləşdirilməsini tələb edir.

Bununla yanaşı dünya təcrübəsi göstərir ki, ölkədə mövcud reallıqlara əsaslanan səmərəli makroinvestisiya siyasəti, habelə milli innovasiya sistemi formalaşdırmadan, onların effektiv prioritet istiqamətlərini müəyyənləşdirmədən innovativ inkişafa keçid mümkün deyildir.

Bütün bunlar öz növbəsində müasir dövrdə investisiyaların innovasiya xarakterinin təmin edilməsinin makroiqtisadi səpkidə elmi-metodoloji və əməli problemlərinin araşdırılmasını, sistemli təhlilini və bu zaman meydana çıxan problemlərin həlli yollarının vasitə və mexanizmlərinin müəyyənləşdirilməsini və bütünlükdə bu prosesin dəyərləndirilməsini tələb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Qloballaşma şəraitində Azərbaycanda investisiyalar, onların innovasiya yönümünün təmin edilməsi və bütövlükdə bu prosesin səmərəli reallaşdırılması problemləri respublikamızın iqtisadçı alimlərindən Ə.C.Muradov, Z.Ə.Səmədzadə, Ş.H.Hacıyev., Ə.İ.Bayramov, X.H.Kazımlı, Ə.Q.Əlirzayev, A.Ş.Şəkərəliyev, İ.A.Kərimli, Q.N.Manafov, K.A.Şahbazov,

M.A.Əhmədov, T.H.Hüseynov, F.F.Mustafayev, M.S.Atakişiyev, E.M.Hacızadə, T.N.Əliyev, R.K.İskəndərov, R.A.Quliyev, Ş.S.Qafarov, Ü.Q.Əliyev, Q.F.Süleymanov, Q.Ə.Səfərov və başqalarının əsərlərində müxtəlif aspektlərdə elmi cəhətdən tədqiq olunmuşdur. Aparılmış tədqiqatları yüksək qiymətləndirməklə yanaşı qeyd etmək istərdik ki, bu tədqiqatlarda əsas diqqət investisiya fəaliyyətinin formalaşması və reallaşması problemlərinin ayrı-ayrı istiqamətlərinə yönəldilmişdir. Lakin, makroiqtisadi səviyyədə investisiyaların innovasiya xarakterinin təmin edilməsi problemi xüsusi tədqiqat obyekti olmamışdır. Bu tədqiqat işində ilk dəfə olaraq Azərbaycanda milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, onun rəqabət qabiliyyətliliyinin artırılması kontekstində təhlil olunmuş, innovasiyalı inkişafın təmin edilməsinin dövlət və bazar mexanizmi sistemli araşdırılmış və bütünlükdə bu prosesin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirməyə cəhd edilmişdir.

**Dissertasiya işinin universitetin elmi-tədqiqat işi ilə əlaqəsi**. Dissertasiya işi Az DİU-nun «İqtisadiyyatın tənzimlənməsi» kafedrasının «Azərbaycanın davamlı inkişaf modelinə keçid şəraitində milli iqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi problemləri» mövzusunda yerinə yetirdiyi elmi-tədqiqat işinin planına uyğundur.

**Dissertasiya işinin məqsədi və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycanda investisiyalar və onlardan istifadənin mövsud vəziyyətini sistemli təhlil etmək, dəyərləndirmək, onların innovasiya xarakterinin təmin olunmasının makroiqtisadi problemlərini elmi-metodoloji baxımdan tədqiq etməklə makroiqtisadi səviyyədə innovasiyalı inkişafın təmin edilməsinin başlıca yol, vasitə və mexanizmlərini müəyyənləşdirmək, bu məqsədlərin əməli cəhətdən reallaşdırılmasına imkan verən iqtisadi strategiyanın işlənib hazırlaması və reallaşdırılması ilə bağlı elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr irəli sürməkdən ibarətdir.

Dissertasiya işində qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- investisiyaların innovasiya yönümünün təmin edilməsinin nəzəri-metodoloji və konseptual aspektlərini araşdırmaq və dəyərləndirmək;

- qloballaşma şəraitində investisiyaların innovasiya xarakterinin təmin edilməsinin əsas cəhətlərini və prioritetlərini dəqiqləşdirmək, Azərbaycanın reallıqları nəzərə alınmaqla onun xarakterik cəhətlərini aşkara çıxarmaq;

- investisiyaların innovasiya xarakterini təmin edən investisiya mühitini konkret amillər və göstəricilər əsasında təhlil etmək və dəyərləndirmək, investisiyaların innovasiya xarakteri ilə makroiqtisadi göstəricilərin dinamikası arasındakı qarşılıqlı asılılığı müəyyələşdirmək;

- innovasiya yönümlü investisiyaların stimullaşdırılması sahəsində xarici təcrübəni təhlil etmək və dəyərləndirmək əsasında onlardan Azərbaycanda istifadə imkanını və mümkünlüyünü tədqiq etmək;

- Azərbaycanda investisiyalar, o cümlədən innnovasiya yönümlü investisiyaların reallaşdırılmasının mövcud normativ-hüquqi bazası və mexanizmlər sistemini araşdırmaq;

- milli iqtisadiyyatın struktur təkmilləşməsi ilə bağlı makro innovasiya–investisiya siyasətinin prioritet istiqamətlərini müəyyənləşdirmək;

- ölkəmizdə milli innovasiya sisteminin formalaşdırılması və onun fəaliyyətinin təkmilləşdirilməsinin metodoloji və əməli problemlərini araşdırmaq;

- innovasiya yönümlü investisiyaların stimullaşdırılması üzrə iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirmək;

- Azərbaycanın davamlı inkişaf modelinə keçid şəraitində investisiyaların innovasiya xarakterinin təmin edilməsinin başlıca istiqamətlərini əsaslandırmaq.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın predmetini Azərbaycanın milli iqtisadiyyatına yönəldilən investisiyalar, inno-

vasiyalar və investisiyaların innovasiya xarakterinin təmin edilməsi və bu prosesin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi problemlərinin tədqiqi, tədqiqatın obyektini isə Azərbaycanın milli iqtisadiyyatı, onun innovasiya xarakterinin təmin edilməsinin dövlət tənzimlənməsi sistemi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın elmi-metodoloji əsaslarını investisiya və innovasiya problemi ilə bağlı klassik, neoklassik, keynsçi, monetar, institusional və digər iqtisadi məktəblərin, habelə respublikamızın və xarici iqtisadçı alimlərin fundamental elmi-tədqiqat əsərləri, bu sahədə dünya təcrübəsində istifadə olunan konsepsiyalar, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları, fərmanları, Milli Məclis, Nazirlər Kabineti tərəfindən qəbul olunmuş normativ aktlar, hökumət proqramları, normativ-hüquqi sənədlər, hesabatlar və s. təşkil etmişdir. Tədqiqat prosesində sistemli yanaşma, statistik və müqayisəli təhlil, sintez, proqram məqsədli yanaşma və sair üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın mənbələri və informasiya bazası.** Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadiyyat və Sənaye, Maliyyə Nazirliklərinin, Mərkəzi Bankın və Dünya Bakının ümumiləşdirilmiş rəsmi illik məcmuə və hesabatları, həmçinin müvafiq Elmi-Tədqiqat İnstitutlarının tədqiqat işlərinin nəticələri, təklif və tövsiyyələri təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Mövcud iqtisadi ədəbiyyata və təcrübəyə əsaslanaraq ölkəmizdə investisiyaların innovasiya xarakterinin təmin edilməsinin nəzəri-metodoloji aspektləri və əməli problemləri sistemli təhlil olunaraq mövcud qanunauyğunluqlar aşkara çıxarılmış və ölkəmizə xas xüsusiyyətlər müəyyənləşdirilmişdir;
- Qloballaşma şəraitində innovasiya yönümlü investisiyaları şərtləndirən amillər sistemiləşdirilmiş, perspektiv dövrdə innovasiya inkişaf modelinə keçidin zəruriyyəti və sosial-iqtisadi nəticələri əsaslandırılmışdır;

- İnvestisiyaların innovasiya xarakterini təmin etməyə imkan verən əlverişli investisiya mühiti amillər, risklər və göstəricilər üzrə sistemli təhlil olunmuş və onun təkmilləşdirilməsi ilə bağlı konkret təklif və tövsiyyələr irəli sürülmüşdür;

- Makroiqtisadi göstəricilərin dinamikası ilə investisiyaların innovasiya xarakterinin artması arasındakı qarşılıqlı əlaqə iqtisadi-riyazi modellərdən istifadə edilməklə qiymətləndirilmiş və həmin asılılığın optimallaşdırılması ilə bağlı konkret tövsiyyələr verilmişdir;

- Azərbaycan iqtisadiyyatında reallaşdırılan investisiyaların sahələrarası və texnoloji strukturu innovativ inkişaf baxımından dəyərləndirilməsi əsasında onun təkmilləşdirilməsinin başlıca istiqamətləri əsaslandırılmışdır;

- Azərbaycanda milli innovasiya sisteminin formalaşdırılmasının zəruriyyəti, onun ölkənin mövcud imkan və reallıqlarına uyğun reallaşdırılması prosesinin təkmilləşdirilməsinin konseptual əsasları və prioritetləri müəyyənləşdirilmişdir;

- Qloballaşma şəraitində ölkəmizdə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədi ilə makroinvestisiya-innovasiya siyasətinin prioritetləri dəqiqləşdirilmişdir;

- Davamlı inkişafa keçid şəraitində yaxın gələcəkdə ölkəmizdə investisiyaların innovasiya xarakterinin təmin edilməsinin dövlət və bazar mexanizminin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyyələr irəli sürülmüşdür;

**Dissertasiya işinin nəzəri və əməli əhəmiyyəti** ondan ibarətdir ki, dünya təcrübəsi və mövcud milli reallıqlar nəzərə alınaraq milli iqtisadiyyata investisiya qoyuluşları və onun innovasiya yönümünün təmin edilməsi bütünlükdə, investisiya resurslarından səmərəli istifadə ilə bağlı qanunauyğunluqlar və ölkəmiz üçün xarakterik olan cəhətlər aşkara çıxarılmış, davamlı inkişaf konsepsiyası baxımından investisiyaların innovasiya xarakterinin təmin edilməsinin zəruriyyəti imkanları dəyərləndirilmiş, makroiqtisadi göstəricilərin dinamikası ilə

investisiyaların innovasiya xarakterinin artması arasında qarşılıqlı əlaqə iqtisadi-riyazi modellərdən istifadə etməklə qiymətləndirilmiş və həmin asılılığın optimallaşdırılması ilə bağlı tövsiyyələr verilmiş, Azərbaycanda milli innovasiya sisteminin formalaşdırılmasının zəruriyyəti, ölkənin mövcud imkan və reallıqlarına uyğun təkmilləşdirilməsinin konseptual əsasları və prioritetləri dəqiqləşdirilmiş, yaxın perspektiv üçün ölkəmizdə reallaşdırılacaq makroinvestisiya-innovasiya siyasətinin prioritetləri müəyyənləşdirilmişdir.

Tədqiqatın əməli əhəmiyyəti ondan ibarətdir ki, əldə olunmuş nəticələr, edilmiş ümumiləşdirmələr və irəli sürülən təkliflər ölkəmizdə investisiyaların səmərəliliyinin və prioritetlərinin müəyyən edilməsində, investisiyaların innovasiya xarakterinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsində funksional istiqamətlər üzrə məqsədli kompleks proqramların işlənib hazırlanmasında, habelə «İqtisadiyyatın tənzimlənməsi», «Dövlətin investisiya-innovasiya siyasəti» və digər fənlərin tədrisi prosesində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələri.** Dissertasiya işi «İqtisadiyyatın tənzimlənməsi» və «İqtisadi nəzəriyyə-2» kafedralarının birgə iclasında və Azərbaycan Dövlət İqtisad Universitetinin elmi seminarında müzakirə edilmişdir. Dissertasiyanın mövzusu, əsas müddəaları və işdə irəli sürülən təkliflər, tövsiyyələr əsasında ümumi həcmi 6,4 ç.v. olan 3-ü xaricdə nəşr olunmaqla 13 məqalə dərc olunmuşdur.

**İşin strukturu və həcmi.** Dissertasiya işi girişdən, üç fəsildən, nəticədən, 115 sayda ədəbiyyat siyahısından, ümumi həcmi 155 səhifədən, o cümlədən 3 şəkil, 15 cədvəl, 2 sxem və 1 qrafikdən ibarətdir.

**Dissertasiyanın mündəricatı**

**Giriş**

**Fəsil I. İnvestisiyaların innovasiya yönümünün təmin edilməsi probleminin tədqiqinin konseptual əsasları**

1.1. İnnovasiya yönümlü investisiyalar və onun tədqiqinin elmi-

metodoloji əsasları
1.2. İnvestisiya mühiti, onun formalaşmasına təsir göstərən amillərin makroiqtisadi xarakteristikası
1.3. İnnovativ inkişaf modelinə keçid şəraitində investisiyaların innovasiya xarakterinin təmin edilməsinin zəruriliyi və onun reallaşdırılmasının xüsusiyyətləri
1.4. İnnovasiya yönümlü investisiyanın stimullaşdırılması sahəsində dünya təcrübəsi və ondan Azərbaycanda istifadə imkanları və effektləri
**Fəsil II. Azərbaycan iqtisadiyyatına investısiya qoyuluşları və onun innovasiya xarakterinin müasir vəziyyətinin sistemli təhlili və dəyərləndirilməsi**
2.1. Azərbaycan iqtisadiyyatında reallaşdırılan investisiyaların sahələrarası və texnoloji strukturunun kompleks təhlili və qiymətləndirilməsi
2.2. Milli iqtisadiyyata investisiya qoyuluşları ilə makroiqtisadi göstəricilərin dinamikası arasında qarşılıqlı əlaqələrin xarakteri və dəyərləndirilməsi
2.3. İnnovasiya yönümlü investisiya qoyuluşlarının təmini və reallaşdırılmasının normativ-hüquqi, qanunvericilik bazası
**Fəsil III. Davamlı inkişaf modelinə keçid şəraitində investisiyaların innovasiya xarakterinin təmin edilməsinin dövlət mexanizminin təkminləşdirilməsinin prioritetləri**
3.1. İnvestisiyaların innovasiya xarakterinin təmin edilməsi milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi amili kimi
3.2. Milli innovasiya sisteminin formalaşdırlması və onun fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətləri
3.3. Qloballaşma şəraitində innovativ inkişafın təmin edilməsinin dövlət mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri.
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat**

## TƏDQİQATIN QISA MƏZMUNU

### 1. İnvestisiyalar və onların innovasiya xarakterinə dair elmi – metodoloji yanaşmaların makroiqtisadi xarakteristikası.

Qloballaşma şəraitində investisiyaların innovasiya xarakterinin gücləndirilməsi davamlı iqtisadi artımın təmin edilməsinin və innovativ inkişaf modelinə keçidin həlledici amilinə çevrilmişdir. Bununla əlaqədar olaraq dissertasiya işində investisiyalar milli iqtisadiyyatın fərqli inkişaf mərhələlərində müxtəlif aspektlərdən araşdırılır, müvafiq ümumiləşdirmələr edilir, xarakterik cəhətləri aşkara çıxarılır və investisiyanın, xüsusən onun innovasiya yönümlülüyünün makroiqtisadi xarakteristikası verilir. İnvestisiyalar bütünlükdə iqtisadi fəaliyyətin həlledici amili olmaqla müxtəlif dövlət və bazar subyektləri tərəfindən həyata keçirilməsinə baxmayaraq, son nəticədə milli maraqların reallaşdırılmasına xidmət etməlidirlər.

Dövlətin həyata keçirdiyi makro investisiya siyasəti kapital qoyuluşlarının prioritet istiqaməti olmaqla milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır. Eyni zamanda ölkə iqtisadiyyatın, onun ayrı-ayrı regionlarının, sahələrinin, dövlət, özəl və bələdiyyə mülkiyyət formalarının inkişafında investisiya siyasətinin xarakteri, səmərəliliyi optimal istiqamətlərinin müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir.

Aparılan araşdırmalar göstərir ki, investisiyaların dinamikası və xarakterinin dəyişməsinin iqtisadi inkişafa təsirinə dair bir sıra konseptual yanaşmalar formalaşmışdır. Belə ki, neoklassik nəzəriyyə tərəfdarları şəxsi yığımların formalaşması qanunauyğunluqlarını, investorların davranışı və investisiya qərarlarının verilməsi motivlərini əsaslandırmışlar. İnvestisiya qoyuluşlarına həlledici əhəmiyyət verən konsepsiya isə C.M. Keyns tərəfindən irəli sürülmüşdür. Onun fikrincə, məhz investisiya qoyuluşlarının həcmində baş verən dəyişiklik iqtisadi fəallığın artırılmasının təkanverici qüvvəsidir. Başqa sozlə, investisiyaların səmərəliliyi, onlardan gözlənilən gəlir və həmin gəlirin həcmi nə qədər yüksək olarsa, istehsalın miqyası və artım sürəti də bir o qədər yüksək olacaqdır. Keyns 1929-1933-cü illərdə bütün qərb dünyasını bürüyən iqtisadi böhranı, işgüzar dairələr tərəfindən reallaşdırılan

investisiya qoyuluşlarının məhdud həddə olmasının nəticəsi kimi qiymətləndirmişdir. O, tələbin artımına maneə yaradan amillərdən biri kimi investisiya qoyuluşlarının səmərəliliyinin aşağı olmasını göstərmişdir. Belə ki, yığılmış kapitalın həcminin artması ilə kapitalın məhsuldarlığının azalması hallarının təsiri nəticəsində mənfəət norması aşağı düşür. Başqa sözlə, əgər mənfəət norması faiz normasından elə kəskin fərqlənmirsə, onda istehsalın genişləndirilməsindən və modernləşdirilməsindən yüksək gəlirin əldə olunması daha az cəlbedici olur. Buna görə də investisiya əmtəələrinə olan tələb aşağı düşür. Məşhur iqtisadçı C.Klarka görə investisiya qoyuluşlarının həcmi məhsul buraxılışının təsiri altında müəyyən olunur. Onun fikrincə, iqtisadi inkişafın aşağı düşməsi öz əksini investisiya qoyuluşunun səviyyəsində göstərir.

P.A.Samuelson və V.D. Nordhaus isə belə hesab edirdilər ki, istehlak və investisiya arasındakı qarşılıqlı təsir ölkənin makroiqtisadi tarazlığının müəyyənləşdirilməsində həlledici rol oynayır. Başqa sözlə, qısa müddət ərzində investisiya xərclərinin artım sürətinin yüksək olması, adətən məşğulluğun artımı ilə müşaiət olunur. Uzunmüddətli dövrdə isə milli gəlirin istehlak və investisiya arasında bölgüsünün nisbəti iqtisadi artıma böyük təsir göstərə bilir. Belə ki, investisiya qoyuluşlarının həcminin azalması səmərəli tələbin səviyyəsinin azalmasına və hətta, iqtisadiyyatda durğunluq hallarının baş verməsinə gətirib çıxara bilir.

Ümumən, innovasiya prosesi təmin edilməsi hər şeydən əvvəl ölkədə milli iqtisadiyyatın texniki və texnologiya səviyyəsinin yüksəldilməsi, innovativ sahibkarlığın inkişafının elmi tədqiqat, lahiyə konstruktor işlərinin birgə təsirinin nəticəsi kimi qiymətləndirilməlidir.

Dissertasiya işində araşdırmalardan belə nəticəyə gəlinir ki, geniş təkrar istehsal sistemində investisiyalar, onun xarakteri, dinamikası və istiqaməti mühüm strukturyaradan funksiya yerinə yetirir. Milli iqtisadiyyatın inkişafına yönəldilən investisiyaların

sahə quruluşu, həcmi, xarakteri və istiqaməti bütünlükdə təkrar istehsal prosesinin səmərəliliyinə, struktur irəliləyişlərinə və iqtisadi artımının vəziyyətinə mühüm təsir göstərir.

**2. Milli iqtisadiyyata yönəldilmiş investisiyalar ilə makroiqtisadi göstəricilərin dinamikasının qarşılıqlı əlaqələrinin xarakteri və qiymətləndirilməsi.**

Dissertasiya işində qeyd olunur ki, investisiya qoyuluşlarının innovasiya xarakteri və səmərəliliyi hər şeydən əvvəl milli iqtisadiyyatın dinamik və optimal inkişafa keçid zərurətindən irəli gəlir. İnvestisiya qoyuluşunun dinamikası ilə qarşıya qoyulan məqsədlərə hansı amillər hesabına nail olunmasını müəyyənləşdirmək məqsədilə reallaşdırılan investisiyalarının sosial-iqtisadi nəticələrinin qiymətləndirilməsi tələb olunur. Bu baxımdan investisiya qoyuluşlarının effektivliyini dəyərləndirmək üçün ilk növbədə müvafiq makroiqtisadi göstəricilərin dinamikası ilə qarşılıqlı əlaqə və asılılıqda qiymətləndirilməsi maraq doğurur. Respublikamızda milli iqtisadiyyata yönəldilən investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi məqsədilə investisiya qoyuluşlarının ÜDM-in həcminə təsirinin kəmiyyət qiymətləndirilməsi, başqa sözlə desək onun multiplikator və akselerator effektini hesablamağa cəhd edilmişdir.

Tədqiqat işində xüsusi vurğulanır ki, ümumilikdə investisiya qoyuluşları ilə ÜDM artımı arasındakı əlaqənin müəyyən edilməsi üçün əsas kapitala investisiya qoyuluşları ilə ÜDM arasındakı reqressiya asılılığının nəzərdən keçirilməsi məqsəduyğundur. Aparılan hesablamalar nəticəsində cəmi investisiya qoyuluşları və ÜDM artımı arasındakı əlaqənin, habelə əsas kapitala investisiya qoyuluşlarının ÜDM-ə təsirinin reqressiya asılılığını aşkara çıxarmağa imkan vermişdir. Təhlilin nəticələrinə görə ÜDM artımının 97 faizi əsas kapitala investisiya qoyuluşlarından asılı olur və cəmi investisiya qoyuluşlarının hər 1% artımı ÜDM-də 0,796% artımına səbəb olur.

Məlumdur ki, investisiya qoyuluşunun müəyyən bir qismi respublika iqtisadiyyatının qeyri-neft sektorunda reallaşdırılır.

Son illərdə investisiya qoyuluşlarının prioritet istiqaməti kimi qeyri-neft sektoruna yönəldilməsi müasir dövrdə dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri kimi qiymətləndirilməlidir. Şübhəsiz ki, qeyri-neft sektoruna, infrastrukturaya yönəldilən investisiya qoyuluşları da son nəticədə iqtisadi artımın sürətinə mühüm təsir göstərir. Aparılan hesablamaların nəticəsi göstərir ki, son illərdə qeyri-neft sektorunda istehsal edilən məhsul və xidmətlərin artımının 98,7 faizi bu sektora yönəldilən investisiyalardan asılı olmuşdur. Eyni zamanda qeyri-neft sektoruna yönəldilən investisiya qoyuluşlarının hər 1% artımı qeyri-neft ÜDM-nin 0,32%, əvvəlki ildə bu sektora yönəldilən investisiyaların eyni nisbətdə artımı isə bir illik gecikmə ilə onun 0,36% artımına gətirib çıxarır.

Tədqiqat işində vurğulanır ki, pul kütləsi artımının daxili investisiya qoyuluşlarına təsiri monetar transmissiya mexanizminin faiz dərəcəsi ilə izah edilir. Belə ki, pula tələbin sabit olduğu halda pul təklifində baş verən artım faiz dərəcələrinin aşağı düşməsinə səbəb olur. Reqressiya təhlilin nəticələrinə görə M2 geniş pul kütləsinin daxili investisiyalara təsir effekti isə nisbətən zəifdir. Gəlirlərin bir hissəsi xərcləndiyi kimi, onun digər hissəsi yığıma istiqamətlənir. Gəlirlərin bir hissəsi birbaşa, bir hissəsi isə bank sektoru vasitəsilə yenidən istehsala yönəldilir. Başqa sözlə, gəlirlərin yığılan hissəsi investisiya qoyuluşları formasında iqtisadiyyata yönəldilir.

Beləliklə, təhlil göstərir ki,  daxili investisiya qoyuluşlarının həcminin dəyişməsi məşğulluq səviyyəsində baş verən irəliləyişlərin 95%-ni şərtləndirmişdir. Daxili mənbələr hesabına iqtisadiyyata yönəldilən investisiya qoyuluşlarının hər 1% artımı məşğulluğun 0,03% yüksəlməsinə səbəb olur. Məlumdur ki, inflyasiyanı yaradan əsas amillərdən biri də məhz ölkədə məcmu tələbdə baş verən dəyişikliklərdir.

Tədqiqat işində xüsusi olaraq qeyd olunur ki, ölkənin iqtisadi potensialı daha çox reallaşdıqca məcmu tələbin artımı təklifdən

daha çox qiymətlərin səviyyəsinin yüksəlməsi ilə müşahidə olunur. Başqa sözlə, məcmu tələbdəki hər sonrakı artım daha az təklif artımına, lakin qiymətin daha çox artımına səbəb olur. İnvestisiya qoyuluşları da məcmu tələbin bir hissəsi olduğundan bu qanunauyğunluq onun üçün də məqbul sayılmalıdır. Daxili investisiyaların inflyasiya səviyyəsinə təsiri ilə bağlı reqressiya təhlilindən məlum olur ki, daxili investisiyaların dəyişməsi inflyasiyadakı dəyişmələrin 78%-ni, digər amillərin təsiri isə 22% formalaşdırır. Eyni zamanda daxili investisiyalardakı hər 1%-lik dəyişməsi inflyasiyanın 0,07%-lik eyni istiqamətli dəyişməsinə səbəb olur.

Tədqiqat işində vurğulanır ki, investisiyaların həcmi, dinamikası və innovasiya xarakterinin iqtisadi təhlilinin digər bir vacib cəhəti əhalinin pul gəlirləri ilə bağlıdır. Əhalinin pul gəlirlərinin investisiyalardan birbaşa asılı olması real bir prosesdir. Ancaq digər göstəricilər kimi bu göstəricinin də investisiya qoyuluşlarından nə səviyyədə asılı olmasının qiymətləndirilməsi dövlətin iqtisadi siyasətinin xarakterinin dəyərləndirilməsi baxımından zəruridir. Əhali gəlirlərinin daxili investisiya qoyuluşlarından asılılığının qiymətləndirilməsi göstərir ki, daxili investisiyaların hər 1% artması əhali gəlirlərinin 0,6% yüksəlməsinə səbəb olur. Gəlirlərin dəyişməsinin 98%-i investisiya qoyuluşlarındakı dəyişikliklər, qalan 2% isə modeldə nəzərə alınmayan amilləri təsiri ilə izah edilir.

Beləliklə, investisiya qoyuluşları ilə tədqiqata cəlb edilmiş makroiqtisadi göstəricilər arasındakı əlaqələrin təhlilinin nəticələri aşağıdakı kimi qiymətləndirilə bilər:

- qeyri-neft sektorunda istehsal həcminin hər 1% yüksəlməsi daxili investisiyaların 0,48% artmasına səbəb olur;
- M2 pul aqreqatının illik artımının hər 1% yüksəlməsi daxili investisiyalarda 0,35%-lik artımına gətirib çıxarır;
- daxili mənbələr hesabına iqtisadiyyata yönəldilən investisiya qoyuluşlarının hər 1% artımı məşğulluğun 0,03% yüksəlməsi ilə nəticələnir;

- daxili investisiyalardakı hər 1%-lik dəyişmə inflyasiyada 0,07%-lik eyni istiqamətli dəyişikliyə səbəb olur;
- daxili investisiyaların hər 1% artması əhali gəlirlərinin 0,6% yüksəlməsinə imkan verir.

Bütün bunlar belə deməyə əsas verir ki, məcmu tələbin əsas amillərdən biri olan investisiyaların və onun innovasiya xarakterinin təmin olunması yaxın gələcəkdə Azərbaycanda iqtisadi artımın mühüm amilinə çevriləcəkdir.

**3. İnnovasiya yönümlü milli iqtisadiyyatın formalaşdırılmasının investisiya amilləri.**

Tədqiqat işində aparılan araşdırmalardan belə nəticəyə gəlinir ki, müasir dövrdə investisiya qoyuluşunun innovasiya yönümlülüyünün sosial-iqtisadi inkişafda yaratdığı pozitiv təsir effektləri baxımından dəyərləndirilməsi daha məqsədəuyğun hesab edilməlidir. Belə ki, innovasiyalı inkişafın təmin edilməsi cəmiyyətin qarşısında qoyulan məqsədlərə çatmaq imkanlarını genişləndirməklə davamlı inkişafın tələblərinə uyğun məhdud resurslara olan tələbatı daha yaxşı və az xərclə ödəməyə imkan verir. Bu baxımdan, innovasiya prosesi sadəcə olaraq iqtisadi inkişafın sürətinin artırılması baxımından deyil, həmçinin iqtisadi inkişafın xarakter və istiqamətinin dəyişməsinin və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasının mühüm mənbəyi, potensialı kimi dəyərləndirməlidir.

Tədqiqat işində xüsusi vurğulanır ki, makroiqtisadi aspekt-dən investisiya qoyuluşları ikili funksiya yerinə yetirir. Belə ki, o bir tərəfdən məcmu xərclərin mühüm ünsürü olduğu üçün investisiya qoyuluşlarının dinamikası birbaşa məcmu tələbin səviyyəsinə təsir göstərir. Məcmu tələbin dəyişməsi isə son nəticədə məşğulluğun səviyyəsini dəyişməsinə səbəb olur. Bununla yanaşı, investisiyalar eyni zamanda kapital yığımının artımına gətirib çıxarır. Başqa sözlə, əsas fondların artımı ölkənin uzunmüddətli iqtisadi inkişafına maddi zəmin yaradır. Beləliklə, investisiyalar qısa dövrdə məcmu tələbə və kapitalın

formalaşmasına habelə uzunmüddətli iqtisadi inkişafa təsir imkanına malik vasitə kimi nəzərdən keçirilməlidir.

Dissertasiya işində belə qənaətə gəlinir ki, investisiyanın həcmi və xarakteri milli iqtisadiyyatın perspektiv strukturunun formalaşdırılmasının və sosial məqsədlərin həyata keçirilməsinin başlıca potensial mənbəyi hesab edilməlidir.

Milli iqtisadiyyatın ayrı-ayrı sahələrində innovasiyaların tətbiq edilməsində dövlətin fəal iştirakı dünya bazarında rəqabət prosesinin fəal iştirakıçısına çevirə bilər. Bu problemin səmərəli həlli müvafiq olaraq dövlətin tənzimləmə sisteminin təkmilləşdirilməsini tələb edir.

Dissertasiya işində qeyd olunur ki, bu məqsədlə innovativ sahibkarlığın inkişafının stimullaşdırılması xüsusilə əhəmiyyətlidir. İnnovativ sahibkarlığı stimullaşdırmaq məqsədilə dissertasiya işində konkret təklif və tövsiyyələr irəli sürülür. Ümumən, innovasiya bir fəaliyyət novü kimi nəinki iqtisadiyyatın keyfiyyət göstəricilərinin təkmilləşdirilməsinə xidmət edir, eyni zamanda yeni fəaliyyət mühütü və növü yaradan bir proses kimi dəyərlədirilməlidir.

Bu baxımdan, hər bir milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin edilməsi hər şeydən əvvəl əlverişli iqtisadi mühitlə şərtlənir. Bu zaman əsas problem iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin hansı vasitə, amil və mexanizmlərdən istifadə edilməsi nəticəsində əldə olunması mühüm əhəmiyyət kəsb edir. Bu aspektdən innovasiya fəaliyyəti bütün səviyyələrdə iqtisadi inkişaf strategiyasının həlledici amilinə çevrilir.

Bəzi iqtisadi ədəbiyyatda və təcrübədə yenilik və innovasiya anlayışları eyniləşdirilir. Lakin mahiyyət etibarilə yenilik və innovasiya anlayışları fərqli spesifik xüsusiyyətlərə malikdirlər. Belə ki, yenilik hər hansı fəaliyyət sferasında istehsalın səmərəliliyinin yüksəldilməsi üzrə fundamental tətbiqi tədqiqatların nəticəsi olmaqla ixtira, kəşf, patent, əmtəə nişanı, səmərələşdirici təklif və s. şəklində ola bilər. İnnovasiya isə idarəetmə obyektində iqtisadi, sosial, ekoloji, elmi-texniki və

digər növ səmərənin alınması məqsədilə yeniliklərin tətbiqinin son nəticəsi kimi qiymətləndirilməlidir.

Araşdırmalar göstərir ki, nəinki yeni təşəkkül tapan milli iqtisadiyyatlarda, hətta inkişaf etmiş ölkələrin dövlət büdcə xərclərində investisiya xərcləri mühüm yer tutmaqla yanaşı, müasir dövrdə də onun artımı müşahidə olunur. Bu baxımdan, dövlətin investisiya siyasəti milli iqtisadiyyatın prioritet sahə və sferalar üzrə investisiya proqramları çərçivəsində reallaşdırılmağı məqsədəuyğundur. Bu proqramlar dövlətin investisiya-innovasiya siyasətinin funksional sahələr üzrə həyata keçirilməsinin tənzim olunmasının mühüm iqtisadi mexanizminə çevrilir.

Dissertasiya işində xüsusi vurğulanır ki, ölkədə innovasiya proseslərinin inkişafında sənaye sahəsi mühüm rol oynayır. Çünki, sənaye sahəsi ölkə iqtisadiyyatının əsasını təşkil edir, eyni zamanda Azərbaycan sənayesi kifayət qədər innovasiyalı potensiala malikdir. Bugün əsas kapitala yönəldilən investisiyaların 42,7% bu sahənin payına düşür. Təhlil göstərir ki, sənayedə innovasiyalı inkişafın təmin edilməsində texnoloji innovasiyaların, məhsul innovasiyalarının və proses innovasiyaların hasilat, həm də emal sənaye sahələri üzrə milli iqtisadiyyatın gələcək davamlı inkişaf baxımından dəyərləndirilməsi xüsusilə əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə innovativ inkişafı təmin etmək üçün müvafiq elmi fəaliyyətin və innovasiya fəaliyyətinin dəstəkləmək məqsədilə zəruri infrastrukturlar yaradılır. Bu baxımdan Sumqayıtda texnoparkların, biznes indikatorların yaradılmasının əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Dissertasiyada qeyd olunur ki, dünyada elmi-texniki və innovasiya siyasətinin formalaşması və reallaşdırılması mexanizmləri fərqlidir. Çünki, müxtəlif ölkələrdə dövlət və bazar mexanizmlərinin tətbiqi nisbəti, ETLKİ-nin idarə olunmasının təşkialtı institusional strukturları da müxtəlifdir. Öz növbəsində dövlətin milli innovasiya siyasətinin formalaşmasında elmi-

tədqiqat layihə işlərinə ayrılan vəsaitlərin ÜDM-də nisbəti dərəcəsi çox əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, son illərdə respublikamızda büdcə vəsaiti hesabına çoxsaylı elmi layihələrin reallaşmasına baxmayaraq, hələ bu sahəyə sərf olunan vəsaitlərin məbləği kifayət qədər deyildir.

Təcrübə göstərir ki, elmi fəaliyyətə istiqamətlənmiş ümumi maliyyə vəsaitləri ilə ÜDM arasında müəyyən mütənasiblik gözlənilmədiyi təqdirdə, onun milli iqtisadiyyatın inkişafındakı rolunu qənaətbəxş qiymətləndirmək mümkün deyildir.

Bu baxımdan innovativ inkişaf modelinə keçidin əməli bir problem kimi qarşıya qoyulduğu müasir dördə ölkəmizdə müxtəlif mülkiyyət formaları üzrə investisiya-innovasiya proseslərinin stimullaşdırılmasının effektiv tənzimləmə mexanizminin formalaşdırılması müstəsna əhəmiyyətə malikdir.

**4. Milli innovasiya sisteminin formalaşması və reallaşmasının təkminləşdirilməsinin prioritetləri.**

Dissertasiya işində qeyd olunur ki, ölkəmizdə milli innovasiya sisteminin formalaşdırılması problemi kifayət dərəcədə öyrənilməməsi bu problemin elmi-metodoloji və reallaşdırılmasının əməli problemlərinin araşdırılmasını kəskin aktuallaşdırmışdır. Ölkəmizdə mövcud elmi-texniki kadr potensialına, maliyyə imkanlarına, bütünlükdə milli iqtisadiyyatın inkişaf səviyyəsinə, reallığına uyğun milli innovasiya sisteminin formalaşdırılması məqsədi ilə innovasiya fəaliyyəti üçün əlverişli iqtisadi, hüquqi, sosial və innovasiya mühitinin və çevik institusional sisteminin yaradılması çox zəruridir. Müasir dövrdə respublikamızda innovasiya sisteminin formalaşdırılması ilə bağlı professor İ.Kərimlinin belə bir, fikri ilə tam razıyıq ki, yaxın perspektivdə milli innovasiya sistemini formalaşdırmaq üçün ilk növbədə texnoloji və innovasiya sistemlərinin yaradılması, birgə lahiyə tədqiqatlarının aparılması, vençur firmaları şəbəkələrinin yaradılması, injirinq əməliyyatları üzrə texniki-texnoloji əməkdaşlığın gücləndirilməsi obyektiv zərurətə çevrilmişdir. Bu zaman iqtisadi-enerji və texnoloji təhlükəsizliyinin təmin

edilməsi məqsədilə ixracın strukturunun təkmilləşdirilməsi, yeni texnologiyaların ölkəyə idxalı və tətbiqi üçün əlverişli gömrük-tarif sisteminin tətbiqi xüsusilə əhəmiyyətlidir. Ölkədə elmi-texniki potensialın geniş təkrar istehsalı prosesini təmin etmək üçün respublikada elmi-texniki tərəqqi – təkrar istehsal prosesinə sistemli yanaşmaq lazımdır. Ümumən, ölkəmizdə milli innovasiya sisteminin yaradılması bütünlükdə milli innovasiya siyasətinin funksional innovasiya, sahə innovasiya və regional investisiya siyasəti ilə qarşılıqlı əlaqə və asılılıqda reallaşdırmağa imkan verə bilərdi. Bu məqsədlə müasir dövrdə bu problemin həllində dövlətin tənzimləmə sisteminin stimullaşdırıcı funksiya-sının gücləndirilməsi də nəzərdən qaçırılmamalıdır. Bununla bağlı 2009-cu ildə ölkə prezidenti İlham Əliyevin sərəncamı ilə «2009-2015-ci illərdə elmin inkişaf etdirilməsinin milli strategiyası»nın qəbulu ölkəmizdə innovasiyalı inkişafın həlledici amili olan insan kapitalının formalaşmasında mühüm rol oynamışdır.

Respublikamızda innovasiyalı inkişafın prioritetlərini müəyyənləşdirmək və bütünlükdə bu prosesi mövcud reallıqlara uyğun sistemli və məntiqi ardıcıllıqla həyata keçirməsini təmin etmək üçün mülkiyyət formasından asılı olmayaraq ayrı-ayrı sahə və istehsallar üzrə konkret istiqamətlər üzrə konsepsiyaların işlənib hazırlanması məqsədəuyğundur.

Təcrübə göstərir ki, dünyada texnoparkların yaradılması dövlət elmi-tədqiqat institutlarında elmi işlərin kommersiyalaşdı-rılması milli iqtisadiyyatın inkişafına şərait yaradan bir stimul kimi qəbul olunur. Texnoparklar dövlətin innovasiya siyasətinin bir aləti kimi elmi mərkəzlərin və sahibkarların hesabına yeni biliklərin tətbiqi prosesini sürətləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, innovasiyalar geniş tətbiq edilməklə həm yüksək gəlir əldə etmək və həm də davamlı inkişafa nail olmaq mümkündür. Dissertasiya işində bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsini ölkəmizə geniş tətbiqinin məqsədəuyğunluğu

əsaslandırılmışdır.

Milli innovasiya sisteminin formalaşmasına hər bir ölkənin seçdiyi inkişaf konsepsiyası da mühüm təsir göstərir.

Dünya iqtisadi ədəbiyyatında və təcrübədə milli iqtisadiyyatın inkişaf strategiyasının inersiyalı, ixrac-xammal və innovasiyalı inkişaf ssenariləri fərqləndirilir. Təhlil göstərir ki, əgər inersiyalı inkişaf strategiyasında əsas diqqət mövcud enerji - xammal kompleksinin saxlanılmasına, ixrac - xammal senaresində ölkənin rəqabət üstünlüklərindən daha geniş istifadə olunmasına yönəldilirsə, innovasiya inkişaf modeli isə milli iqtisadiyyata elmi-texniki, texnoloji nailiyyətin, intellektual kapitalın, geniş tətbiqinə əsaslanır. İnkişaf etmiş ölkələrin təcrübəsi onu da göstərir ki, innovasiyalı inkişaf modellərində uzun müddətli dövr ərzində iqtisadi artımın sürəti enerji-xammal senareləri əsasında inkişaf edən ölkələrdən təxminən 2 dəfə yüksək olur.

Tədqiqat işində xüsusi vurğulanır ki, perspektiv dövr üçün işlənib hazırlanan səmərəli milli innovasiya sistemini formalaşdırmaq üçün, ilk növbədə son on illikdə ölkəmizdə milli iqtisadiyyatın inkişaf qanunauyğunluqları və bu inkişafı təmin edən amillər dəyərləndirilməli; Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olduğu şəraitdə elmi-texniki tərəqqinin başlıca istiqamətləri; qloballaşan dünyada milli iqtisadiyyatımızın rəqabət üstünlükləri müəyyənləşdirilməli; milli iqtisadi inkişafın start vəziyyəti qiymətləndirilməli; milli innovasiya sistemi formalaşdırılarkən ölkəmizdə tarixən formalaşmış elmi-texniki, kadr, intellektual insan potensialı nəzərə alınmalı; ölkəmizin resurslar balansı, ondan istifadə dərəcəsi və yaxın perspektivdə hərəkətə gətirilə biləcək imkanlar dəyərləndirilməli; məcmu tələb və təklifin dəyişməsində mümkün ola biləcək başlıca istiqamətlər aşkara çıxarılmalı; ölkəmizdə milli innovasiya sisteminin formalaşması prosesinə təsir edə biləcək daxili, xarici obyektiv və subyektiv amillər dəyərləndirilməlidir. Əlbəttə milli innovasiya sistemi formalaşdırılarkən iqtisadi təhlükəsizlik

problemləri mühüm meyar kimi nəzərdən qaçırılmamalıdır.

**5. Davamlı inkişafa keçid şəraitində innovativ inkişafın təmin edilməsinin dövlət mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri.** Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması davamlı inkişaf modelinə keçidi əməli bir problem kimi qarşıya qoymağa imkan vermişdir. Məlumdur ki, davamlı inkişafın təmin edilməsinin resurs amili iqtisadi ədəbiyyatda ilkin şərti və bazası hesab olunur. Lakin o da məlumdur ki, resurslara əsaslanan milli iqtisadiyyatların uzunmüddətli dinamik inkişafını təmin etmək mümkün deyildir. Çünki, hər hansı bir ölkə təbii resurslarla nə qədər zəngin olsa da, onların həcmi məhduddur. Bu baxımdan inkişafın daimi və əslində tükənməz mənbəyi innovasiya, elmi biliklərə əsaslanan insan kapitalıdır. Hər bir milli iqtisadiyyatda innovasiya amilinin iqtisadi inkişafdakı rolunu müəyyənləşdirmək üçün ilk növbədə ölkənin rəqabət üstünlüklərini və mövcud elmi-texniki, kadr, maliyyə potensialının reallaşdırılması imkanlarını dəyərləndirmək lazımdır. Məlumdur ki, qlobal maliyyə böhranı iqtisadi inkişafın resurs amillərindən asılılığının azaldılması problemini son nəticədə kəskin aktuallaşdırmışdır.

Dissertasiya işində mövcud iqtisadi ədəbiyyata və reallıqlara əsaslanaraq yaxın gələcək üçün davamlı inkişafın təmin edilməsi baxımından yaxın gələcək üçün investisiyaların innovasiya xarakterini gücləndirmək üçün ölkəmizdə innovasiya siyasətinin prioritetlərini müəyyənləşdirməyə cəhd edilmişdir.

İnnovasiya fəaliyyətinin stimullaşdırılmasında ETT-nin və innovasiya fəaliyyətinin inkişafında büdcə mexanizmi mühüm rol oynayır. İnnovasiyalı inkişaf modelinə keçid şəraitində innovasiyalı inkişafı təmin etmək üçün zəruri mühitin yaradılması, yeni texnika və texnologiyaların istehsalı - tətbiqi, innovasiya menecmenti sahəsində məqsədyönlü kadr hazırlığı və elmi tədqiqatların aparılmasının dövlət maliyyələşdirilməsi və dəstəyinin geniş tətbiqi zəruridir.

Qeyd etmək lazımidır ki, ölkəmizdə innovasiya fəaliyyətinin tənzimləmə sistemində məqsədli dövlət proqramlarının, xüsusən regional inkişaf proqramlarının reallaşdırılmasının müstəsna rolu xüsusi qeyd olunmalıdır. Bütün bunlarla yanaşı ölkəmizdə davamlı inkişafı təmin etmək üçün elmi-texniki cəhətdən inkişaf etmiş iri sahibkarlıq strukturlarının kiçik və orta sahibkarlıq fəaliyyəti ilə vahid bir təkrar istehsal mexanizmdə optimal nisbətdə birləşdirilməsi çox zəruridir.

Dissertasiya işində aparılan təhlil göstərir ki, müasir mərhələdə innovasiya fəaliyyətinin tənzimlənməsinin dövlət və bazar mexanizminin optimal nisbətdə tətbiqi xüsusilə əhəmiyyətlidir. Ümumən, ölkədə innovasiya fəaliyyətini stimullaşdırmaq üçün güzəştli kreditləşmənin, vergi güzəştlərinin, müxtəlif təyinatlı lizinqlərə elmi-texniki, maliyyə dəstəyinin verilməsi, françayzinqin geniş tətbiqi və s. mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, kəmiyyət və keyfiyyətcə eyni resurslar balansına malik olan ölkələr də qeyd olunan prinsiplər əsasında innovasiya fəaliyyətinin stimullaşdırılması mövcud resurslardan səmərəli istifadə etmək imkanı yaratmaq qabiliyyətinə malik olurlar.

Tədqiqatda göstərilir ki, Azərbaycanda innovativ inkişafın maliyyə təminatında ölkəmizdə reallaşdırılan neft strategiyası müstəsna rol oynayır. Belə ki, ölkəmizdə neft gəlirlərinin idarə olunması və istifadəsi ilə bağlı reallaşdırılan iqtisadi model neftin ixracından əldə edilən valyuta ehtiyatlarının neft fondunda cəmlənməsi və həmin vəsaitlərdən mərkəzləşdirilmiş qaydada bütünlükdə ölkənin prioritet, sosial-iqtisadi məqsədlərini reallaşdırmaq üçün şəffaflıq prinsipləri gözlənilməklə ondan səmərəli istifadəyə imkan verdi. Bu baxımdan Azərbaycanın qlobal maliyyə böhranından ən az itki ilə çıxması, innovasiyalı və davamlı inkişaf modelinə keçidə imkan verən ən başlıca amillərdən hesab edilməlidir.

Belə ki, 2001-2013-cü illər ərzində neft fonduna ümumi daxilolmalar 97,3 milyard ABŞ dolları təşkil etmişdir. Məlumdur

ki, Azərbaycanda innovativ inkişafın təmin edilməsində dövlət büdcəsindən maliyyələşdirilən investisiya proqramları xüsusi yer tutur. Ümumən, bu illərdə neft fondundan dövlət büdcəsinə 63,2 milyard dollar vəsait transfer olmuşdur.

Son illərdə ölkəmizdə innovativ inkişaf əsasında davamlı inkişafı təmin etmək üçün makroiqtisadi göstəricilərin dinamikasında kifayət qədər uğurlu nəticələr əldə edilmişdir. Ümumən 2003-2013-cü illərdə ölkə iqtisadiyyatına 160 milyard ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. Təkcə 2013-cü ildə Azərbaycan iqtisadiyyatına 28 milyard dollar sərmayə qoyulmuşdur ki, onun da 17,5 milyardı daxili mənbələr hesabına olmuşdur. Bütünlükdə, ölkəmizdə bu illər ərzində ümumi daxili məhsul 3,4 dəfə, qeyri-neft sektoru 2,6 dəfə, investisiya qoyluşları 6,5 dəfə, regionlardan ümumi məhsul buraxılışı 3,2 dəfə, sənaye məhsulu 3,1 dəfə, rabitə xidməti 6,1 dəfə artmışdır.

Dissertasiya işində apardığımız tədqiqatlar ölkəmizdə investisiyaların innovasiyalı xarakterini təmin etməklə davamlı inkişafa keçid məqsədilə yaxın gələcək üçün işlənib hazırlanan iqtisadi inkişaf strategiyasının əsaslarını, prioritetlərini müəyyənləşdirməyə imkan vermişdir. Onlara aşağıdakılar aid edilə bilər:

- milli iqtisadiyyatın inkişafının maddi zəminini təmin edən obyektiv investisiya - innovasiya siyasətinin formalaşdırılması;
- dəyişən şəraitə və innovativ inkişafın tələbinə uyğun olaraq müvafiq institusional dəyişikliklərin həyata keçirilməsi;
- ölkənin gələcək sosial-iqtisadi inkişafını təmin etmək üçün müvafiq innovativ infrastrukturanın yaradılması;
- Azərbaycanın milli iqtisadiyyatının rəqabət qabiliyyətini və səmərəliliyini təmin etmək üçün milli innovasiya sisteminin yaradılması;
- milli iqtisadiyyatın davamlı və dinamik inkişafını təmin etmək üçün ölkəmizdə intellektual potensiallı insan kapitalının inkişafına dövlət dəstəyi sistemi və mexanizminin

təkmilləşdirilməsi;

ümumi iqtisadi inkişafda insan kapitalının rolunun yüksəldilməsinə nail olunması;

- real sektorun strukturunun təkmilləşdirilməsi, onun potensialının artırılması, iqtisadi fəaliyyətin diversifikasiyası əsasında ölkənin rəqabətqabiliyyətinin yüksəldilməsi,qeyri-neft sektorunun inkişafının təmin edilməsi;

- ölkəmizdə makroiqtisadi dayanıqlığın təmin olunması, qorunub saxlanılması; investisiya-innovasiya mühitinin yaxşılaşdırılması, iqtisadi fəallığın və sahibkarlığın əlavə dəyər yaratmaq qabiliyyətinin artırılması ilə bağlı fəal dövlət dəstəyi sisteminin formalaşdırılması və s.

Qlobal maliyyə böhranı birmənalı şəkildə göstərdi ki, iqtisadi artımın keyfiyyətini, innovasiyalı inkişafını, milli iqtisadiyyatın inkişafının davamlılığını, rəqabət qabiliyyətliliyini, təhlükəsizliyini təmin etmədən əslində bütövlükdə cəmiyyətin və iqtisadiyyatın davamlı inkişafına nail olmaq mümkün deyildir.

Bütün bunlar öz növbəsində ölkəmizin malik olduğu resurs balansı, onlardan istifadə dərəcəsi, elmi-texniki tərəqqinin mövcud imkanları daxilində yaxın gələcəkdə hərəkətə gətirilə biləcək potensial, dünya iqtisadiyyatında baş verən mütərəqqi meyllər və mövcud reallıqlar nəzərə alınaraq milli iqtisadiyyatın dinamik, tarazlı və səmərəli inkişafının təmin edilməsi zərurəti ölkəmizdə investisiyaların innovasiya xarakterinin təmin edilməsinə əsaslanan davamlı inkişaf konsepsiyasının formalaşdırılması və reallaşdırılmasını tələb edir.

Dissertasiya işinin sonunda tədqiqatdan əldə olunan nəticələr ümumiləşdirilir, müvafiq təklif və tövsiyyələr irəli sürülür.

**Dissertasiya işinin əsas müddəaları və işdən irəli gələn praktik təkliflər aşağıdakı elmi-əsərlərdə öz əksini tapmışdır:**

1. Şükürov N.S. "İnnovasiya yönlü inkişafın təmin olunmasında investisiyanın rolu" // İqtisad elmləri: nəzəriyyə və

praktika, jurnal 2006 №1-2, səh.137-142., 0,5 ç.v.

2. Şükürov N.S. "İnnovasiya prosesinin reallaşmasında dövlət siyasəti" // İqtisad elmləri: nəzəriyyə və praktika, jurnal 2007 №3-4, səh.192-197., 0,5 ç.v.

3. Şükürov N.S. "Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasında innovasiya amili" // İqtisad elmləri: nəzəriyyə və praktika, jurnal 2008 №3-4, səh.205-212, 0,6 ç.v.

4. Şükürov N.S. "İnvestisiya mühiti və onun formalaşmasına təsir edən başlıca amillər" // İqtisadiyyat və audit // 2008 № 1(91), səh.10-14., 0,5 ç.v.

5. Şükürov N.S. "İnvestisiya resurslarının formalaşdırılması və ondan səmərəli istifadə mexanizmləri" // Azərbaycan aqrar elmi // 2008, №2, səh. 113-116., 0,4 ç.v.

6. Şükürov N.S. "Milli innovasiya sisteminin formalaşdırılmasının bəzi məsələləri" AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi əsərləri // 2008, №4, səh. 25-31., 0,6 ç.v.

7. Şükürov N.S. "İnvestisiya qoyuluşlarının stimullaşdırılmasının prioritet istiqamətləri" // İqtisad elmləri: nəzəriyyə və praktika, jurnal 2009 №1-2, səh. 105-109., 0,5 ç.v.

8. Şükürov N.S. "İnnovasiya yönümlü investisiyalar və davamlı iqtisadi artım problemi" // İqtisad elmləri: nəzəriyyə və praktika, jurnal 2009 №3-4, səh.174-179.,0,5 ç.v.

9. Механизмы обеспечения инновационного характера инвестиций в национальную экономику. Регион Политика Экономика Социология №1, 2010, стр.120-124., 0,5 ç.v.

10. İnvestisiya qoyuluşlarının stimullaşdırılmasının prioritet istiqamətləri. İqtisad Elmləri: Nəzəriyyə və Praktika (rüblbük nəzəri və elmi-praktiki jurnal №1,2010, Bakı 2011, 0,5 ç.v.

11. İnnovasiya yönlü investisiyalar və davamlı iqtisadi artım problemi. İqtisad Elmləri: Nəzəriyyə və praktika (Rüblbük nəzəri vıə elmi-praktiki jurnal) №2, Bakı 2011, 0,5 ç.v.

12. Стимул к совершенствованию. Современные тенденции и проблемы регулирования инновационной деятельности

в Азербайджане. Креативная Экономика №6/12 (Всероссийский Ежемесячный Научно-Практический журнал)., 0,4 ç.v.

13. Формирование Национальной Инновационной Системы и концептуальные Основы Деятельности. Актуальные Вопросы Экономики и Менеджмента (24 апреля 2013) Новосибирск «СиБАК» 2013, 0,4 ç.v.

**ЩУКЮРОВ НАЗИМ САЯДХАН оглы**

# Макроэкономические проблемы обеспечения инновационной направленности инвестиций

## РЕЗЮМЕ

Диссертационная работа, посвященная исследованию вопросов придания приоритетности инновационной направленности с точки зрения социально-экономического развития в условиях реализации крупномасштабных инвестиционных вложений состоит из введения, трех глав, выводов и списка литера-туры. Во введении обосновывается актуальность темы, говорится об уровне изучения проблемы, определяется предмет, объект, цель, задачи, научно-методологические основы работы, а так же отмечается научная новизна и информационная база исследования.

Первая глава диссертационной рабаты озаглавленной «Научно-методологические вопросы использования инвестиционных вложений инновационной направленности» посвящена разработке экономической сущности и его характеристики в целом, исследованию инвестиционной среде и факторам влияющие на его формирования, а также посвящена определению специфических особенностей инновационной направленности инвестиций и возможности использования иностранного опыта в области стимулирования инновационно направленных инвестиций.

Во второй главе работы «Комплексный анализ и оценка современного состояния использования инвестиционных вложений в Азербайджанской Республике» посвящена анализу современного состояния межотраслевой структуры и направлений, реализуемых в Азербайджанской экономике, исследованию реализации нормативно-правового механизма инновационно направленных инвестиционных вложений в Азербайджанской Республике, оценке связей между инвестиционными вложениями макроэкономическими показателями.

В последней главе исследовательской работы «Государственный механизм стимулирования инновационного характера инвестиционных вложений и направления его реализации посвящена определению направлений использования инвестиций в совершенствовании структуры экономики, формирования системы национальной системы инноваций и совершенствовании его деятельности, а также характеристике роли для обеспечения стабильного развития перехода к развития модели инвестиционной направленности.

В конце диссертационной работы обобщаются выводы, полученные в результате исследования, сформированы предложении и рекомендации.

**SHUKUROV NAZIM SAYADHAN OGHLU**

## Macroeconomic problems innovative orientation of investments

## SUMMARY

The dissertational work devoted to research of questions of giving a priority of an innovative orientation from the point of view of social and economic development in the conditions of realisation of large-scale - investments consists of the introduction, three heads, conclusions and the list a letter-rounds. In introduction the theme urgency is proved, spoken about level of studying of a problem, the subject, object, the purpose, problems, scientifically-methodological bases of work and as scientific novelty and information base of research is marked is defined.

The first chapter of the dissertational work entitled «Scientifically-methodological questions of use of investments an innovative orientation» is devoted working out of economic essence and its characteristic as a whole, to research to the investment environment and factors influencing its formations, and also devoted definition of specific features of an innovative orientation of investments and possibility of use of foreign experience in area of stimulation of innovatively directed investments.

In the second chapter of work «The complex analysis and an estimation of a modern condition of use investments in the Azerbaijan Republic» it is devoted the analysis of a modern condition of interbranch structure and the directions realised in the Azerbaijan economy, research of realisation of the is standard-legal mechanism innovatively directed investment investments in the Azerbaijan Republic, an estimation of communications between investment investments macroeconomic indicators.

In last chapter of research work «The machinery of government stimulation of innovative character of investments and a direction of its realization» it is devoted definition of directions use of investments in perfection of structure of economy, formation of system of national system of innovations and perfection of its activity, and also the characteristic of a role for maintenance of stable development of transition to development of model of an investment orientation.

In the end of dissertational work the conclusions received as a result of research are generalised, generated the offer and the recommendation.

Sifariş 037. Həcmi 2 ç.v.
Formatı 60x84. Tiraj 100.
"ULU" istehsalat-kommersya firmasında
istifadə olunmaqla

**МИНСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЩУКЮРОВ НАЗИМ САЯДХАН оглы**

# МАКРОЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ИННОВАЦИОННОЙ НАПРАВЛЕННОСТИ ИНВЕСТИЦИЙ

**Специальность: 5308.01- «Общая экономика»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации по присуждению ученой степени
доктора философии по экономике**

**БАКУ - 2015**